**HÜSEYN ABBASZADƏ**

# YUN CORAB



**UŞAQGƏNCNƏŞR**

Mənim uzunboğazlı
Bir gözəl corabım var.
Ayağımı üşütmür
Əsən külək, yağan qar.
Nənəm yayda toxumuş
Mənə bu yun corabı.
Üstündə güllər açmış:
Yaşıl, qırmızı, abı.
Sapları rəngbərəngdir,
Xalı kimi qəşəngdir
Mənim təzə corabım.
Ayağıma geyəndə
Çatır dizə corabım.



Nənəm yaxşı ustadır,
Qızıldandır əlləri,
Yanından əskik olmur
Yumaqları, milləri.
Elə gözəl əlcəklər,
Yun corablar, köynəklər
Toxuyur ki, baxanlar
Bir də baxmaq istəyir.
Hamı: „Yasəmən qarı
Mahir ustadır" — deyir.

Yun corab birdən-birə
Hazır olmur, uşaqlar.
Bilirsinizmi, bunun
Nə qədər zəhməti var.
Nənəm qoçaq arvaddır,
O qorxmur heç bir işdən.
Nə olsun ki, qocadır,
Yaşı keçib yetmişdən;
Canı sağlamdır ancaq.
Xəstələndirmir onu
Nə bürkü, nə də sazaq.





Uşaqlıqdan öyrənib
Təmiz dağ havasına,
Gözəl bağ havasına.
Deyəndə ki, az işlə,
Qocalmısan, ay nənə.
Deyir, bala, iş görmək
Gümrahlıq verir mənə.
Bircə gün əllərimə
Toxunmasa yumaq, mil.
Bekar gəzməkdə məni
Qınayırlar elə bil.

Havalar qızan kimi
Babam qırxır qoyunu,
Nənəm də dağ çayında
Təmiz yuyur bu yunu.
Sərir günün altına.
Yun quruyub ağ olur,
İpək tək yumşaq olur.
Sonra da nənəm onu
Salır köhnə cəhrəyə.
Əyirir, dodaqaltı
Bayatı deyə-deyə.







Yazda Qoşqar dağında,
Xaçbulaq yaylağında
Əsəndə xoş küləklər,
Çöllərdə güldən-gülə
Qonanda kəpənəklər,
Nənəm gəzməyə çıxır
Kəndin çəmənlərini,
Səfalı bağlarını,
Yaşıl düzənlərini.
Bahar çiçəklərindən
Toplayır qucaq-qucaq.
Birinin ləçəyi ağ,
Birininki narıncı,
O biri əlvan olur.



Adam bu çiçəklərə!
Baxanda heyran olur,.
Hələ yaxşı bilmirəm
Onların adını mən
Gərək bir-bir öyrənim
Bunu qoca nənəmdən.
Siz heç bilirsinizmi
Nənəm bu çiçəklərdən,
Ətirli ləçəklərdən
Neçə cürə rəng alır?



Əyirdiyi sapları
İri küplərə salır,
Boyayır səliqəylə.
Hər yumaq bir rəng olur,
Hamısı qəşəng olur.
Nənəmin boyadığı
Bu rəngbərəng sapları
Nə gün soldura bilər,
Nə də ki, qışın qarı.
Nənəm işsiz dayanmır.



Saplar hazır olanda,
Oturub döşək üstə
Yenə güllü eyvanda,
Gümüşü millərini
Yerə qoymur əlindən.



Dayanıb yanında mən
Tamaşa eləyirəm
Vurduğu naxışlara.
Onun qırmızı, qara,
Yaşıl rəngli saplardan
Toxuduğu çiçəklər,
Elə bil ki, canlıdır.
Seyrə çıxıb bu səhər
Bağçalardan dəriblər,
Gətirib yun corabın
Uzərinə səriblər.



***RƏSSAMI R. ƏMİROV***



**Abbaszadə Hüseyn Abbas oğlu**

YUN CORAB

Redaktoru Nəriman Həsənzadə.

Badii redaktoru *Y. Ağayev.*

Texn. redaktoru *V. Avadeyeva.*

Korrektoru *Ş. Səlimova*

Çapa imzalapmış 5/VI 1961-ci il. Formatı 60x90'/,—1 = 2 ç. v. Nəşr. v. 2. Tirajı 16000. Sifariş 282.

Qiymәti 15 qәp.

Uşaqgəncnəşr. Bakı, Fioletov küçəsi. 8.

Azərbaycan SSR Mədəniyyət Nazirliyiyin 26, Komissar adına mətbəəsi, Bakı, Əli Bayramov küçəsi, 3.